**NÜŞABƏ MƏMMƏDOVA**
*tarix elmləri namizədi*
*Azərbaycan MEA A.A.Bakixanov adına Tarix İnstitutu*

# BAKI MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİNİN İDARƏ HEYƏTİ VƏ "İSMAİLİYYƏ" BARƏDƏ

XX əsrin əvvəllərində, xüsusilə 1905-1907-ci illər inqilabı gedişində Azərbaycanın ictimai-siyasi həyatında demək olar ki, yeni bir dövr başlandı. Milli-azadlıq hərəkatının görkəmli nümayəndəsi M.Rəsulzadənin qeyd etdiyi kimi, 1905-ci il inqilabından sonra Azərbaycanda "...gündəlik qəzetlər və digər nəşriyyatlar təsis olundu, ədəbiyyyat qol-budaq ataraq çiçəkləndi, musiqi və teatr səhnəsi inkişaf etdi, mətbəələr açıldi, bir çox maarif cəmiyyətləri, siyasi qruplar və təşkilatlar quruldu."(6, s.5-6)

Artıq bütün Rusiya ərazisində yaranmış gərgin ictimai-siyasi şəraitdə çarizm müəyyən güzəştlərə getməyə məcbur oldu. Həmin ildə Bakıda milli-ictimai təşkilat- "Bakı müsəlman xeyriyyə cəmiyyəti" yaradıldı(2). Bu ictimai birliyi hələ 1871-ci ildə Nizamnaməsi Həsən bəy Məlikov (Zərdabi) tərəfindən tərtib olunaraq rəsmi dövlət orqanları tərəfindən təsdiq olunmuş ilk müsəlman xeyriyyə cəmiyyəti – "Təhsil alan müsəlman uşaqlarına kömək cəmiyyəti"nin varisi hesab etmək olar. Belə ki, bu iki cəmiyyətin nizamnamələrini müqayisə etdikdə bunların məqsədi və həyata keçirilməsi nəzərdə tutulan proqramlarında prinsipial fərq olmadığı görürük. Qeyd edək ki, "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin də yaradılmasında və nizamnaməsinin tərtib olunmasında ilk müsəlman xeyriyyə cəmiyyətinin yaradıcısı olan Həsən bəy Məlikovun böyük xidmətləri olmuşdur.

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Nizamnaməsi onun təsisçiləri tərəfindən hazırlanaraq təsdiq olunması üçün Qafqaz canişininə göndərildi. Beləliklə, 1905-ci il oktyabr ayının 10-da Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Nizamnaməsi təsdiq edildi.(3, v.11, 11(arx.) Qeyd edək ki, cəmiyyətin təsisçiləri aşağıdakı tərkibdən ibarət idi.(3, v.13)

1. Hacı Zeynalabdin Tağıyev -sahibkar
2. Həsən bəy Məlikov (Zərdabi)-"Əkinçi" qəzetinin keçmiş redaktor-naşiri, "Kaspi" və "Həyat" qəzetlərinin əməkdaşı
3. Əlimərdan bəy Topçubaşov- "Kaspi" qəzetinin redaktor- naşiri və "Həyat" qəzetinin naşiri, vəkil (hüquqşünas)
4. Əhməd bəy Ağayev -"Həyat" qəzetinin keçmiş redaktoru
5. Əli bəy Hüseynzadə -"Həyat" qəzetinin redaktoru, həkim
6. İsmayıl bəy Səfərəliyev -Bakı nəsillikcə fəxri vətəndaş
7. Hacı Aslan Aşurov- Bakı nəsillikcə fəxri vətəndaş
8. İsa bəy Hacınski-Bakı I gildiya taciri
9. Kamil bəy Səfərəliyev -Bakı şəhər idarəsinin üzvü
10. Abdulxalıq Axundov-Həkim
11. Məmməd Rza bəy Vəkilov -Həkim
12. Həsən bəy Ağayev -Həkim
13. Kərbəlay Nəcəfqulu Sadıqov-Bakı şəhər dumasının deputatı
14. Kərbəlay İsrafil Hacıyev-Bakı şəhər dumasının deputatı
15. Həsən Ağa Həsənov-Bakı şəhər dumasının deputatı
16. Mirzə Əsədullayev-Bakı şəhər I gildiya taciri
17. Əsəd bəy Zəlimxanov-I dərəcəli zabit

18. Ağabala Quliyev-Bakı taciri
19. Əsədulla Əhmədov-Bakı şəhər dumasının deputatı
20. Hacı Həsən Atamalıyev-Bakı şəhər dumasının deputatı
21. Nəcəf Əmiraslanov-Bakı taciri

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin nizamnaməsi cəmiyyətin fəaliyyəti üçün nəzərdə tutulmuş 6 bölmədən və bu bölmələrdə əks olunan 42 maddədən ibarətdir. Bu bölmələrdə cəmiyyətin məqsədi, tərkibi, vəsaiti, cəmiyyətin işlərinin idarə olunması, ümumi qaydalar, cəmiyyətin başlanmasına dair maddələr öz əksini tapmışdır.

Cəmiyyətin nizamnaməsinin I bölməsindən aydın olur ki, bu qurumun məqsədi "Müalicəxanalarda, əlillər evlərində, digər xeyriyyə müəssisələrində əldən düşmüş müsəlman qocalarına maddi yardım göstərmək (saxlamaq), həmçinin kasıb müsəlman şagirdlərinə orta və ali təhsil müəssisələrinə qəbul olunmalarına və təhsillərini davam etdirmələrinə qayğı göstərmək"dən ibarətdir. Nizamnamədə həmçinin kasıb müsəlmanlara ərzaq, paltar, mənzil, tibbi yardım, zəruri hallarda pul yardım edilməsi, imkansız tələbələrin təhsil haqlarının ödənilməsi və s. məsələlər də öz əksini tapmışdır.(3, v.14)

Cəmiyyətin məqsədi və həyata keçirilməsi nəzərdə tutulan proqramla bağlı cəmiyyətin üzvləri, eyni zamanda həmin dövrün digər ziyalıları, bu cəmiyyətin amalının xalqa çatdırılması üçün mütəmadi olaraq ana dilli mətbu orqanlarında çıxış edirdilər. Həmin dövrün görkəmli maarifçi ziyalılarından olan Həsən bəy Ağayev "İrşad" qəzetində "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nə həsr olunmuş məqaləsində bildirir ki, "Cəmiyyəti-xeyriyyənin əsas məqsədi kasıblara maddi kömək etmək, onları növbənöv fəlakətdən qurtarmaqdır."(8) Bu kimi çıxışlar insanlar arasında bir növ təbliğat vasitəsi idi. Məhz bu kimi çıxışlarla cəmiyyətin üzvləri əhalinin, xüsusilə maddi köməyə daha çox ehtiyacı olan insanların istər tibbi yardımda, istərsə də digər maddi dəstək üçün, həmçinin təhsil almaq sahəsində cəmiyyətə müraciət etmələrinə bir çağırış idi. "Bakı müsəlman xeyriyyə cəmiyyəti" də öz işini əsasən daha çox əhalinin aşağı, kasıb təbəqəsi arasında həyata keçirməyi nəzərdə tuturdu.

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nə insanların olan ehtiyacını və bu cəmiyyətin artıq xalqın ümid yerinə çevrilməsini öz məqaləsində əks etdirən Hacı Ağa Əlibəyov "İrşad" qəzeti səhifələrində yazırdı: "...ibtidai və ədadi məktəb və şkolanın tətil vaxtı qurtarmaqdadır. Bir qədər sonra hər yerdən cəmi uşaqlar Bakıya müraciət edib, şkol və məktəb həvəsilə kimi kitabsız, kimi libassız, kimi də pulsuz gələcəklər. Yenə də Bakı cəmiyyəti-xeyriyyəyə müraciət edəcəklər."(7) Buradan göründüyü kimi, məhz "Bakı müsəlman xeyriyyə cəmiyyəti" əhalinin bu təbəqəsinin sosial tələbatının təmin olunması, onların maarifləndirilməsi, imkansız ailədən olan uşaqların ibtidai, orta və ali təhsil almalarına hərtərəfli maddi və mənəvi dəstək göstərilməsi sahəsində böyük nüfuz qazanmışdır.

"Bakı müsəlman xeyriyyə cəmiyyəti" öz üzvlərinin sayına məhdudiyyət qoyulmurdu. Nizamnaməyə uyğun olaraq, cəmiyyətin üzvlüyünə azyaşlılar, təhsil müəssisələrində təhsil alan şagirdlər, həqiqi hərbi xidmətdə olan aşağı rütbəli hərbçilər və yunkerlər, məhkəmə tərəfindən məkum olunmayan milliyyətindən, dinindən asılı olmayaraq hər iki cinsdən olanlar qəbul oluna bilərdilər.(3, v.14)

Cəmiyyətin idarə heyəti Ümumi İclasda öz üzvləri içərisindən bir il müddətinə seçilirdi. Niamnaməyə görə cəmiyyətin bütün üzvləri cəmiyyətə təmənnasız xidmət edirdilər və idarə heyətinin bütün üzvləri sədrin dəvəti ilə ayda bir dəfədən gec olmayaraq yığılırdılar. İdarə heyətində qərarların qəbulu səs çoxluğu ilə həll olunur, bərabərlik olduqda sədrin səsi üstünlük təşkil edirdi. (3, 14(arx.), 15, 15(arx.)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin idarə heyəti nəzərdə tutduğu proqramının həyata keçirilməsi gedişində görmək istədiyi hər bir iş barədə əvvəlcədən Qafqaz ca-

nişininə məlumat verməli idi.(3, v.14) Yalnız hökumət orqanının icazəsi olduqdan sonra cəmiyyət nəzərdə tutduğu layihəni həyata keçirə bilərdi. Bu icazə də öz növbəsində müəyyən pillələrdən keçirdi. Bu layihənin həyata keçirilməsinin mümkün olub-olmamasına əvvəlcə Bakı qubernatoru baxırdı. Əgər tədbir məqsədə uyğun olardısa, onda Bakı qubernatoru özü bu barədə daxil olan sənədləri təsdiq olunması üçün Qafqaz canişininə göndərirdi. Bu çarizmin xüsusilə azərbaycanlılar üçün tətbiq etdiyi "ruslaşdırma siyasəti"nin təzahür formalarından biri idi.

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin nizamnaməsinə görə idarə heyətinin strukturu aşağıdakı tərkibdən müəyyən olunurdu: 1) sədr; 2) sədrin köməkçisi; 3)üç nəfər üzvdən ibarət katiblik.

Arxiv sənədlərindən məlum olur ki, cəmiyyətin ilk iclasında onun aşağıdakı tərkibdə 11 nəfərdən ibarət idarə heyəti seçilmişdir: sədr-Hacı Zeynalabdin Tağıyev, sədrin müavini-İsrafil Hacıyev, xəzinədar-Hacı Mustafayev, katib-Əhməd bəy Ağayev, idarə heyətinin üzvləri-Əsədulla Əhmədov, İsmayıl bəy Səfərəliyev, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov və digərləri idarə heyətinə üzv seçilmişlər.(1, v.61; 5)

Cəmiyyətin üzvləri 3 qrupa bölünürdülər: a) fəxri üzvlər- bu şəxslər ümumi iclasda cəmiyyətin fəaliyyətində xüsusi xidmətləri olan üzvlər arasından seçilirdi. Fəxri üzvlər vaxtaşırı 500 rubl, ildə isə 50 rubl üzvlük haqqı; b) həqiqi üzvlər ildə 5 rubl və c) üzvlüyə namizədlər 5 rubl və yaxud 1 rubldan az olmayaraq ödəməli idilər. (1, v.61; 5)

Cəmiyyətin əsas gəliri vaxtaşırı və illik üzvlük haqlarından, cəmiyyətin üzvlərindən və digər şəxslərdən daxil olan pul yardımlarından, konsertlərdən, açıq oxudan, rəqs axşamlarından və s. cəmiyyətin təşkil etdiyi tədbirlərdən daxil olan gəlirlərdən yaranırdı. Vaxtaşırı üzvlük haqları cəmiyyətin toxunulmaz kapitalını təşkil edirdi. Cəmiyyətin kapitalı qiymətli kağızlarda Dövlət Banklarında, yaxud onun şöbələrində və əmanət kassalarında saxlanılırdı. Cəmiyyətin məxaric məbləği ümumi iclasda və yaxud idarə heyətində təyin olunurdu.(1, v.14(arx.)

Cəmiyyətin idarəçilik işlərinə idarə heyəti və ümumi iclas rəhbərlik edirdi.

Cəmiyyətin idarə heyətinin vəzifələri aşağıdakılardan ibarət idi: a)cəmiyyətin məqsədlərini həyata keçirmək üçün bütün imkanlarından istifadə etmək və onun vəsaitini artırmaq; b)cəmiyyətin idarə heyətinin işlərini onun üzvləri arasında qarşılıqlı anlaşma əsasında bölüşdürmək; c)cəmiyyətin kapitalına və əmlakına rəhbərlik etmək; v)cəmiyyətin nizamnaməsinin yerinə yetirilməsinə nəzarət etmək d)cəmiyyətə himayədarlıq etmək və yaxud kömək etmək istəyənlər barədə məlumat toplamaq; ğ) cəmiyyətin işi ilə bağlı müəssisələr və şəxslərlə əlaqə yaratmaq; t)Ümumi İclası çağırmaq və qəbul olunan qərarın icrasına nəzarət etmək. Bütün bunlarla yanaşı idarə heyəti cəmiyyətin fəaliyyəti barədə illik hesabatları və cari ilin planını tərtib edir.

Nizamnaməyə uyğun olaraq cəmiyyətin fəaliyyətində ali orqan cəmiyyətin üzvlərindən təşkil olunmuş Ümumi İclas sayılırdı. Ümumi İclaslar adi və fövqəladə olurdu. Adi iclas əvvəlcədən müəyyənləşdirilmiş qayda üzrə ildə bir dəfə çağırılırdı. Fövqəladə iclas isə qubernatorun və yaxud 10/1-dən az olmayaraq yaxud cəmiyyət üzvlərinin yazılı müraciətinə təftiş komissiyası və idarə heyəti tərəfindən baxıldıqdan sonra çağrılır. Ümumi İclas o vaxt hüquqi sayılırdı ki, Bakıda yaşayan cəmiyyət üzvlərinin 4/1-dən az olmayaraq hissəsi iştirak etsin. Ümumi İclasda aşağıdakı məsələlərə baxılırdı: a)cəmiyyətin sədri, fəxri üzvləri, həmçinin üzvlüyə namizədlər seçilir;b)cəmiyyətin fəaliyyəti və xəzinəsi ilə bağlı hesabatlara baxılır; c)ehtiyat və yaxud xüsusi kapitalın yaradılmasına baxılır; d)nizamnaməyə əlavələr və dəyişikliklər edilməsinə baxılır; ğ)cəmiyyətin idarə heyətinin strukturunu və təftiş komissiyasını təsdiq edir; q)cəmiyyətin bağşlanması məsələsinə baxılır.(2, v.16)

Cəmiyyət xüsusi möhürə və maliyyə hesabına malik idi.

Cəmiyyətin fəaliyyəti və büdcəsi haqqında ətraflı illik hesabat cəmiyyətin Ümumi İclasının qərarı ilə hər il yanvarın 1-də iki nüsxədə-bir nüsxə qubernatora, bir nüsxə isə çarın Qafqazdakı canişininə təqdim olunurdu.(2, v.17)

Cəmiyyətin Nizamnaməsinin 36-cı maddəsində göstərilir ki, cəmiyyət öz orqanını nəşr etdirilməsini nəzərdə tuturdu. Lakin bu məsələ cəmiyyətin qarşısında bir proqram olaraq qalırdı. Birinci dünya müharibəsinin başlanması bu məsələni bir qədər ön plana gətirdi. Qəzetin yaradılmasında iki məqsəd var idi: 1. Cəmiyyətin müharibə dövründə həm Azərbaycanda, həm də Rusiyanın digər ərazilərində həyata keçirdiyi tədbirlər, gördüyü işlər barədə məlumatın çatdırılması; 2. Müharibədən zərər çəkən müsəlmanlara kömək məqsədi idi ki, qəzetdən daxil olan bütün gəlir məhz bu məqsədə yönəldilirdi.

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin orqanı olan "Qardaş köməyi" adlı qəzetinin ilk sayı 1915-ci il martın 11-də buraxıldı. Qəzetin naşiri və redaktoru "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin sədri Mirzə Əsədullayev idi.(17; 18)

Həmin ildə "Kaspi" qəzeti səhifələrində "Qardaş köməyi" qəzetinin nəşrində fəaliyyət göstərmək istəyən bütün jurnalist və mürəttiblər işə qəbul olunmaları barədə elan verilmişdir.(18)

"Qardaş köməyi" qəzeti ölkənin müsəlman əhalisi üçün gündəlik 10.000 nüsxədə çıxması nəzərdə tutulurdu. Qeyd edək ki, qəzetin ilk buraxılışı da məhz bu sayda olmuşdur. Cəmiyyət gələcəkdə qəzetin tirajının artırılmasını və Cənubi Qafqazın iri şəhərlərində qəzetin satılmasının təşkil olunmasını planlaşdırırdı.(18)

Qəzetin satış qiyməti 10 qəpik idi.(18) Qəzetin bütün mətni müharibədən zərər çəkən müsəlmanlara həsr olunurdu. Bir faktı qeyd edək ki, həmin dövrdə Azərbaycan ziyalıları və xeyriyyəçiləri arasında ümumi maraq—bir-birlərinə kömək etmək, birləşərək azərbaycanlıların maarfləndirilməsi, milli şüurun inkişaf etdirilməsi sahəsində birgə iş aparmaq marağı var idi. Məhz bu maraq naminə "Qardaş köməyi" qəzetinin ilk sayı nəşr olunan günü—1915-ci il martın 11-də bütün müsəlman qəzetləri öz nəşrini bir günlük dayandırdı. Burada əsas məqsəd ondan ibarət idi ki, bu qəzeti tanıtmaq, insanların bu qəzetə olan maraqlarını aşılamaq və qəzetin böyük tirajla satışına nail olmaq. Bu məqsəd öz müsbət nəticəsini verdi. "Qardaş köməyi" qəzeti böyük ruh yüksəkliyi ilə satıldı və qəzet müxtəlif firmaların da marağına səbəb oldu. Onlar qəzetin redaktorluğuna müraciət edərək öz elanlarının dərc edilməsi barədə sifarişlər verdilər.(18) Bütün bunlar cəmiyyətə böyük bir maliyyə dəstəyi olacağını göstərirdi.

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin idarə heyətinin yerləşdirilməsi məsələsinə gəldikdə, bu məsələyə 1905-ci il noyabrın 20-də cəmiyyətin idarə heyətinin keçirdiyi iclasında baxıldı.(4, v.1) Həmin iclasda cəmiyyətin tədbirlərinin keçirilməsi üçün zalının olmaması, həmçinin məktəb, kitabxana, qiraətxananın və s. müəssisələrinin yerləşdirilməsi üçün yerinin olmaması məsələsi müzakirə olundu və qərara alındı ki, bu məsələlərin həll olunması üçün Nikolayevski küçəsində yerləşən "Kaspi" qəzeti redaksiyası ilə Tağıyevin qız məktəbi arasındakı şəhər torpağında "Bakı müsəlman xeyriyyə cəmiyyəti" üçün torpaq ayrılması barədə Bakı şəhər idarəsi qarşısında vəsatət qaldırılsın. Bunun üçün cəmiyyətin sədri H.Z.Tağıyev vəkil təyin olundu.(4, v.1) Həmin il noyabrın 21-də H.Z.Tağıyev bu məsələ ilə əlaqədar Bakı şəhər idarəsinə müraciət etdi. H.Z.Tağıyevin bu müraciətinə qeyd olunan sahənin planı əlavə edilmişdir.(4, v.1) Plana görə müsəlman cəmiyyəti sahəsi 463 kv.sajen* olan bir sahənin ayrılmasını xahiş edirdi.(4, 2; 2(arx.); 3)

Bakı şəhər dumasının keçirdiyi iclasında şəhər idarəsinin rəisi "Bakı müsəlman xeyriyyə cəmiyyəti" üçün təhsil müəssisələrinin tikilməsi üçün torpaq sahəsinin ayrıl-

* 1 sajen=3 arşına və yaxud 2.134 metrə

ması barədə etdiyi çıxışında bildirdi ki, "...cəmiyyətin təqdim etdiyi plandan görünür ki, bu sahə 463 kv.sajen* ölçüdən ibarətdir və azad torpaqdır."(4, 2; 2(arx.); 3) Bakı şəhər idarəsinin rəisi həmçinin "Bakı müsəlman xeyriyyə cəmiyyəti" üçün nəzərdə tutulan torpaq sahəsinin aşağıdakı şərtlər əsasında verilməsini təklif etdi:(4, 2; 2(arx.); 3)

1.Torpaq mülkiyyət kimi deyil, Bakı şəhərində müsəlman xeyriyyə cəmiyyətinin fəaliyyət göstərdiyi və mövcud olduğu bütün zamanı onun istifadəsi üçün pulsuz olaraq ayrılır.

2.Cəmiyyət bağlanarsa bu torpaq geri qaytarılır və şəhər mülkiyyətinə keçir.

3.Cəmiyyət ayrılmış sahədə yalnız xeyriyyə və maarif işləri məqsədilə istifadə edə bilər

4.Cəmiyyət bir ildən gec olmayaraq tikintiyə başlamalı və 3 il müddətində qurtarmalıdır. Əgər bu torpaqdan istifadə etməsə şəhər idarəsi geri qaytara bilər.

Bakı şəhər Dumasının 1 dekabr 1905-ci il tarixli iclasında Nikolayevski küçəsində "Kaspi" qəzeti redaksiyası ilə Tağıyevin qız məktəbi arasındakı ərazidə "Bakı müsəlman xeyriyyə cəmiyyəti" üçün torpaq sahəsi ayrılması barədə qərar qəbul edildi.(4, v.3) 1906-cı il fevralın 4-də Bakı qubernatorunun quberniya işləri üzrə idarəsinin Bakı şəhər başçısına yazdığı 14 saylı məktubda Dumanın 1 dekabr 1905-ci il tarixli qərarının yerinə yetirilməsi barədə məlumat verilir. Məlumatda qeyd olunur ki, "Bakı müsəlman xeyriyyə cəmiyyəti" üçün nəzərdə tutulan ərazidə torpaq sahəsi ayrılmışdır.(4, v.5)

Beləliklə, Bakı şəhər dumasının 1905-ci il 1 dekabr tarixli qərarına əsasən "Bakı müsəlman xeyriyyə cəmiyyətinə" Nikolayevski küçəsində torpaq sahəsi ayrıldı(4, v.5) və bu məsələ digər rəsmi sənədlərdə də öz əksini tapdı. Belə ki, 1906-cı il fevralın 4-də Bakı qubernatorunun quberniya işləri üzrə idarəsinin Bakı şəhər başçısına yazdığı 14 saylı məktubunda bildirilir ki, Bakı şəhər dumasının 1 dekabr 1905-ci il tarixli qərarını yerinə yetirərək yerli müsəlman xeyriyyə cəmiyyətinə Nikolayevski küçəsində torpaq sahəsi ayrılmışdır.(4, v.5)

1906-cı il fevralın 16-da Bakı şəhər idarəsinin üzvü Məmmədhəsən Hacınskinin, idarənin mütəxəssisi Georgeyevin və Bakı müsəlman xeyriyyə cəmiyyəti tərəfindən vəkil olunmuş Əsədulla Əhmədovun iştirakı ilə akt tərtib olunaraq həmin torpaq sahəsinin pulsuz olaraq cəmiyyətə verilməsi hüquqi sənədlərlə rəsmiləşdirilərək təsdiq olundu: (4, v.6) "...imza edənlər: Bakı şəhər idarəsinin mütəxəssisi Georgeyev, Bakı müsəlman xeyriyyə cəmiyyətinin vəkili Əsədulla Əhmədov, Bakı Şəhər İdarəsinin üzvü Məmməd Həsən Hacınski iştirakı ilə şəhərin Nikolayevski küçəsində torpaq sahəsi ayrıldı. Bu sahə pulsuz olaraq Bakı Şəhər Dumasının 1 dekabr 1905-ci il qərarına əsasən qeyd olunmuş şərtlər əsasında xeyriyyə cəmiyyətinin istifadəsinə verildi. Ayrılmış torpaq sahəsi 463 kv.sajendir..."(4, v.6)

Bakı müsəlman xeyriyyə cəmiyyətinin binasının tikintisinə 1908-ci ildə başlanıldı.(11; 12; 13; 14) Qeyd edək ki binanın cəmiyyətin vəsaiti hesabına tikilməsi nəzərdə tutulurdu. Cəmiyyətin sədrinin yoldaşı Ağa Musa Nağıyev mərhum oğlu İsmayıl Nağıyevin xatirəsinə onun adını daşıyacaq "İsmailiyyə" binasına sərf olunacaq bütün vəsaiti öz üzərinə götürdü. Beləliklə, həmin il dekabrın 21-də -"Qurban bayramı" günündə "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin "İsmailiyyə" adı ilə tikiləcək binasının təməli qoyuldu. Bu münasibətlə təşkil olunan məclisdə cəmiyyətin idarə heyətinin sədri Hacı Zeynalabdin Tağıyev, sədrin yoldaşı Ağa Musa Nağıyev, cəmiyyətin digər üzvləri, Bakı Şəhər rəisinin köməkçisi, polkovnik P.İ.Şubinski və bir çox tanınmış müsəlman ziyalıları iştirak edirdilər. Təməlqoyma mərasimində binanın təyinatı və tikilmə tarixi haqqında yazılmış daş lövhə Bakı quberniya qazısı Axund Mir Məhəmməd Kərim Hacı

---
* 1 sajen= 3 arşın və ya 2.134 metr

Mir Cəfərzadə tərəfindən dualar oxunaraq binanın bünövrəsinə qoyuldu. Sonra H.Z.Tağıyev nitq söyləyərək cəmiyyətin fəaliyyətinin istiqamətlərindən danışdı və bütün məqsədlərin həyata keçirilməsi üçün vəsait lazım olduğunu bildirdi.(9; 12; 13; 14; 15)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin binasının təməli qoyulduqdan sonra "İsmailiyyə" binasının layihəsini—eskizini və ümumi görüntüsünün şəklini (fotosunu) almaq münasibətilə Bakı Aleksandr rus-müsəlman qız məktəbinin zalında mərasim təşkil olundu. Mərasimdə Bakının adlı-sanlı adamları, ziyalılar iştirak edirdilər. Cəmiyyətin istifadəsi üçün aşağıdakı şəxslər ianə etdilər: H.Z.Tağıyev-50 manat, A.M.Nağıyev-50 manat, İsmayıl bəy Səfərəliyev, Əli bəy Aşurbəyov, Hacı Əjdər bəy Aşurbəyov, Ağa Hüseyn Tağıyev, Ələsgər Sadıqov, İsa bəy Aşurbəyov, Zəfər Babayev, Zal Həsənov, Qarabəy Qarabəyov, Süleyman bəy Əzimbəyov, Cəlal Əmiraslanov, Hacı Qasımov, Hacı Mustafa Rəsulov, Ağa Rəhim bəy Xanlarov, Həsənağa Həsənov, Məhəmmədhəsən Hacınski, Fətulla bəy Rüstəmbəyov, Əsədulla Əhmədov, Məhəmmədrza Ağa Vəkilov, Hacı Ağa Dadaş Hüseynov, Əbdüləlibəy Əmircanov, Hüseyn Vəliyev, Əhməd Hacıyev, Əliisgəndər Tağıyev, Məhəmməd Cavad İsmayılov, Əsədulla Axundov, Bala bəy Səfərəlibəyov---Cəmi 300 manat. (10)

Beləliklə, 1908-ci ildə təməli qoyulan "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin "İsmailiyyə" binası 1913-cü ildə tam tikilib başa çatdırıldı. Həmin il yanvarın 4-də cəmiyyətin idarə heyətinin sədinin müavini Mirzə Əsədullayevin sədrliyi ilə keçirilən iclasında binanın avadanlıqlarla təchizatı məsələsinə baxıldı. 1913-cü il yanvarın 15-dən etibarən "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin idarə heyəti "İsmailiyyə" binasına köçürüldü və bu binada ilk olaraq kasıb müsəlmanların xahişlərinə baxıldı. Cəmiyyətin idarə heyətinin üzvü İsmayıl bəy Səfərəliyev bu binaya telefon quraşdırılması işinin təşkilini öz üzərinə götürmüşdür.(16)

1914-cü il martın 13-də cəmiyyətin idarə heyətinin sədri H.Z.Tağıyev Bakı şəhər idarəsinə müraciət edərək bildirdi ki, "...cəmiyyətə ayrılan sahədə Bakı müsəlman xeyriyyə cəmiyyətinin yerləşməsi üçün Ağa Musa Nağıyev öz vəsaiti hesabına yüksək dəyərli böyük bina tikdirmişdir.... müsəlman xeyriyyə cəmiyyəti şəhər idarəsindən xahiş edir ki, şəhər duması qarşısında bu sahənin ayrılması barədə 1 dekabr 1905-ci il şərtlərin 2-ci maddəsinə aşağıdakı dəyişiklik edilməsi barədə vəsadət qaldırılsın: "müsəlman xeyriyyə cəmiyyəti bağlanarsa torpaq-tikinti hər hansı bir müsəlman xeyriyyə və maarif cəmiyyətlərindən birinin himayəsinə keçsin.""(4, v.10) Qeyd edək ki, sənədlərdə bu məsələyə baxılması haqqında heç bir fakta rast gəlinmir.

Beləliklə, 1913-cü il yanvarın 15-dən etibarən "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin idarə heyəti yeni binada –"İsmailiyyə" binasında (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yerləşdiyi bina) yerləşirdi və nizamnaməsində nəzərdə tutduğu proqramını bu binada həyata keçirmişdir. Bu proqrama əvvəlcədən müəyyən olumamış məsələlər--cəmiyyətin fəaliyyətinin sonrakı illərində meydana çıxan məsələlər də daxil oldu. Bu ilk növbədə cəmiyyətin Birinci Dünya müharibəsi illərindəki geniş miqyaslı fəaliyyəti ilə bağlıdır ki, biz bu barədə növbəti tədqiqat işlərində bəhs edəcəyik.

## ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR

1.ARDTA, f.46, siyahı 2, iş 215
2.ARDTA, f.46, siyahı2, iş 335
3.ARDTA, f.46, siyahı 2, iş 395
4.ARDTA, f.389, siyahı 2, iş 224
5.Cavadov C., XX əsrdə Azərbaycanda xeyriyyəçilik hərəkatı, B., 2000

6.Rəsulzadə M.Ə. Milli Azerbaycan hareketinin karakteri, "Ulduz" jurnalı, 1992, №5-6, s.5-6
7.Hacı Ağa Əlibəyov, "Cəmiyyəti-xeyriyyə xüsusunda", İrşad, 7 avqust 1906, №185
8.Həsən bəy Ağayev "Cəmiyyəti-xeyriyyəyə xitabın", İrşad 21 fevral 1907, №30[1]
9.Ittifaq 23 dekabr 1908, №19;
10.İttifaq 24 dekabr 1908, №20
11.Kaspi, 13 yanvar 1908, №11
12.Kaspi, 5 noyabr 1908, №181;
13.Kaspi, 16 dekabr 1908, №214;
14.Kaspi, 21 dekabr 1908 №219;
15.Kaspi, 23 dekabr 1908, №220
16.Kaspi, 6 yanvar 1913, №5
17.Kaspi, 8 mart 1915 № 54
18.Kaspi, 13 mart 1915 №58;

**НУШАБА МАМЕДОВА**
*Ст.науч.сотрудник Института Истории НАНА*

**О ПРАВЛЕНИЕ БАКИНСКОГО МУСУЛЬМАНСКОГО БЛАГОТВОРИТЕЛЬНОГО ОБЩЕСТВА И «ИСМАИЛИЕ»**

В статьи освещаются вопросы образования Бакинского мусульманского благотворительного общества, а также основание «Исмаилие».

Изучение разнообразного фактического материала показывает, что образование этого общества являлась большим шагом для развития общественной мысли в мусульманском мире.

**NUSHABA MAMEDOVA**
*Older scientific collaborator of Justitute of History of ANAS*

**ABOUT REIGNINOF BAKU MUSLIM CHARITY SOCIETY AND "ISMAILE"**

The article devoted to question of forming of Baku muslim charity society, and so forming of "Ismaile".

The investigatin of different of fact material showed, that forming of this society is large step for developing society opinion in muslim world.

***Rəyçilər:* *t.e.n.S.Mustafayeva, t.e.d.S.A.Məmmədov***

***Azərbaycan MEA A.A.Bakixanov adına Tarix İnstitutunun Elmi Şurasının 27 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***